

# Zorakılığa məruz qalan qadınlara çağırış

**_Azərbaycanda qadınlara və uşaqlara qarşı ailə-məişət zorakılığı halları cəmiyyətin ən ağrılı problemlərindən biri olaraq qalır. Daxili İşlər Nazirliyi (DİN) bu məsələyə yenidən diqqət çəkərək vətəndaşları zorakılığa biganə qalmamağa çağırıb. Nazirlik bildirib ki, ailə daxilində baş verən zorakılıq heç vaxt "şəxsi məsələ" kimi qiymətləndirilməməli, əksinə dövlətin və cəmiyyətin birgə mübarizə aparmalı olduğu təhlükəli hüquq pozuntusu kimi qəbul edilməlidir. DİN-in yaydığı məlumatda qeyd olunur ki, nazirlik tərəfindən cinayətlərin, xüsusilə də qadınlara və uşaqlara qarşı törədilmiş ailə-məişət xarakterli zorakılıq əməllərinin qarşısının alınması məqsədilə aidiyyəti dövlət qurumları ilə birlikdə mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir._**

## Cəmiyyət

Bu tədbirlər yalnız zorakılıq baş verdikdən sonra müdaxilə etməklə məhdudlaşmır, eyni zamanda risklərin əvvəlcədən azaldılması üçün hüquqi, sosial və maarifləndirici istiqamətləri də əhatə edir. Nazirliyin açıqlamasında vurğulanır ki, məişət zorakılığı ilə mübarizə təkcə cinayət hadisəsinə reaksiya vermək deyil, bu hadisələrin kökündə duran səbəbləri aradan qaldırmaq, insanların düşüncə tərzini dəyişmək, susqunluğun yaratdığı təhlükəni cəmiyyətə anlatmaqdır. Çünki zorakılıq halları əksər vaxt gizlədilir və qadınlar illərlə psixoloji təzyiq altında yaşamağa məcbur qalır.

Cəmiyyətdə hələ də zorakılığa məruz qalan qadınlara qarşı səslənən "Ailə içində olur belə şeylər", "El nə deyər?", "Qonum-qonşu bilməsin", "Bir az döz, düzələr" kimi ifadələr problemin dərinliyini göstərir. İlk baxışdan bu yanaşma ailəni qorumaq kimi təqdim edilsə də, əslində bu düşüncə zorakılığı normallaşdırır və onun davam etməsinə şərait yaradır. Bu isə təkcə bir qadının həyatını yox, bütövlükdə cəmiyyətin gələcəyini təhlükə altına salır.

Mütəxəssislərin fikrincə, "ailə məsələsi" adı altında gizlədilən zorakılıq bir qadının taleyi deyil, ictimai təhlükəsizlik məsələsidir. Çünki ailədə zorakılıq olan yerdə sağlam nəsil yetişmir, uşaqlar psixoloji travma alır, aqressiya və qorxu normal həyat tərzinə çevrilir. Nəticədə zorakılıq bir evin divarları arasında qalmır, cəmiyyətin bütün qatlarına yayılır.

DİN bir daha bildirir ki, heç bir qadın döyülməyə, təhqir olunmağa, alçaldılmağa və qorxu içində yaşamağa məhkum deyil. Susmaq isə problemi həll etmir, əksinə zorakılığın daha da ağırlaşmasına yol açır. Bu səbəbdən zorakılığa məruz qalan şəxslərin kömək istəməsi, ətrafdakı insanların isə bu hallara göz yummaması vacibdir.

Bəs, görəsən, zorakılığa məruz qalan qadınlar niyə susur? Onları susduran səbəblər hansılardır?

■ **Məsələni qəzetimizə şərh edən psixoloq Vəfa Əkbər deyir ki, Daxili İşlər Nazirliyinin bu çağırışı Azərbaycan cəmiyyətində uzun illər kök salmış "sükut mədəniyyətinin" sındırılması baxımından mühüm addımdır. Onun sözlərinə görə, zorakılığa dözmək anlayışı çox zaman "mental dəyər" adı ilə təqdim edilsə də, əslində bu, cəmiyyətə sonradan yeridilmiş yanlış düşüncə tərzidir.**

"Bəzi insanlar qadınlara zorakılığa dözməyi təlqin edərək onlarda köklü yanlış inanclar formalaşdırırlar. Deyirlər ki, dözməsən, cəmiyyət səni qınayacaq, sənin bu cəmiyyətdə yerin olmayacaq. Hətta "anan da dözüb, nənən də belə ailə saxlayıb" kimi ifadələrlə qadınların susmağa məcbur edildiyini görürük. Nəticədə qadınlar uzun müddət dözür, susur və zorakılıq bir ailənin daxilində normal hal kimi qəbul edilməyə başlayır", - deyə psixoloq bildirir. V. Əkbər qeyd edir ki, zorakılığın olduğu mühitdə nə sağlam ana, nə də sağlam ata modelindən danışmaq mümkündür. Belə ailələrdə böyüyən uşaqlar isə travmatik psixoloji vəziyyətlə yetişir və bu, cəmiyyət üçün ciddi təhlükə yaradır.

Psixoloqun sözlərinə görə, zorakılığa məruz qalan qadınların bir qismi "öyrənilmiş çarəsizlik sindromu"ndan əziyyət çəkir. Bu sindrom qadının özünü çıxılmaz vəziyyətdə hiss etməsinə, vəziyyətdən qurtulmağın mümkün olmadığına inanmasına səbəb olur. Ekspert bildirir ki, zorakılıq göstərən şəxslərin bir qismi narsist xüsusiyyətlərə malik olur və zorakılıqdan sonra "bal ayı" sindromu adlanan davranış modeli nümayiş etdirirlər. Yəni həmin şəxs bir müddət sonra üzr istəyir, davranışını dəyişəcəyinə söz verir və qadında yenidən ümid yaradır. Bu ümid isə zorakılığın davam etməsinə şərait yaradır.

> “
> *Hətta "anan da dözüb, nənən də belə ailə saxlayıb" kimi ifadələrlə qadınların susmağa məcbur edildiyini görürük*

Müsahibimizin fikrincə, zorakılıqdan çıxış yolunu çətinləşdirən əsas faktorlardan biri də qadının maddi asılılığıdır. Qadının iqtisadi müstəqil olmaması onun hərəkət imkanlarını məhdudlaşdırır, çıxış yollarını bağlayır və onu zorakılıq mühitində qalmağa məcbur edir. Digər vacib faktor isə qadınların çox zaman övladlarına görə dözməsidir. "Qadınlar adətən deyirlər ki, övladıma görə dözürəm. Amma həqiqətdə o övlad bir müddət sonra əsəbi, gərgin, xoşbəxtlikdən uzaq bir ana və ata görmək istəmir. Bu cür ailələr travmatik fərdlər yetişdirir. Yəni zorakılıqla yaşamaq ailəni qorumaq deyil, ailəni içəridən məhv etməkdir", - deyə V. Əkbər vurğulayır.

Psixoloq hesab edir ki, DİN-in çağırışı zorakılığa məruz qalan qadınlara daha çox cəsarət verə bilər, lakin təkcə cəsarət kifayət etmir. Onun fikrincə, real nəticə üçün bu qadınların sosial və iqtisadi azadlığı təmin edilməli, onlar üçün dəstək mexanizmləri yaradılmalıdır. "Bu qadınlara yardım lazımdır. Elə bir şərait qurulmalıdır ki, onlar zorakılıqdan uzaqlaşdıqdan sonra həyatlarını yenidən qura bilsinlər, öz ayaqları üstündə dayansınlar. Maddi asılılıq aradan qalxsa, zamanla həmin qadınların mənəvi və psixoloji bərpası da mümkün olacaq", - deyə o əlavə edir. Ekspertin fikrincə, ailə-məişət zorakılığına qarşı mübarizə yalnız hüquqi tədbirlərlə yox, eyni zamanda sosial dəstək, psixoloji reabilitasiya və qadınların iqtisadi müstəqilliyini gücləndirən mexanizmlərlə paralel aparılmalıdır.

*✍ Sevinc*